*QƏRAR*

İş№ 1(103) – 668/2010

Bakı Apellyasiya Məhkəməsinin cinayət kollegiyası
Hakimlər – Faiq Adil oğlu Qasımovun sədrliyi və məruzəsilə,
Sahibxan Arzuman oğlu Mirzəyev və Camal Cumar oğlu Ramazanovdan ibarət tərkibdə,
Məhkəmə iclas katibi – Babək Natiq oğlu Qasımovun,
Dövlət ittihamçısı – Azərbaycan Respublikası Baş Prokurorluğunun dövlət ittihamının müdafiəsi üzrə idarənin prokuroru baş ədliyyə müşaviri Murad Camov oğlu Nəsirovun,
Məhkumlar – Xələddin İsə oğlu Alıyev və İlhamin Zaməddin oğlu Quliyevin iştirakları ilə

16 avqust 2010-cu il Bakı şəhərində

07.07.1984–cü ildə Tovuz rayonunda anadan olmuş, Azərbaycan Respublikasmm vətəndaşı, subay, orta təhsilli, işləməyən, əvvəllər Bakı şəhər Nəsimi rayon məhkəməsinin 23 dekabr 2005 – ci il tarixli hökmü ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 221.2.2, 127.2.3–cü maddələri ilə təqsirli bilinib Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 66.3–cü maddəsinə əsasən 3 il 6 ay müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş, Azərbaycan Respublikası Prezidentinin 26 avqust 2008–ci il tarixli Əfv fərmanına əsasən cəzasının çəkilməmiş qalan hissəsindən azad edilmiş, Ağır Cinayətlərə dair Azərbaycan Respublikası məhkəməsinin 13 oktyabr 2009 – cu il tarixli hökmü ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178.1, 181.2.1 181.2.2 və 181.2.5 – ci maddələri ilə təqsirli bilinib həmin məcəllənin 66.3 – cü maddəsinə əsasən əmlakı müsadirə edilməməklə 10 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş, Tovuz rayonu, Düz Qırıxlı kəndində qeydiyyatda olan,

Xələddin İsə oğlu Alıyevin və

01.10.1971 – ci ildə Yexlax şəhərində anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, subay, orta təhsilli, fərdi işlə məşğul olan, əvvəllər məhkum olunmamış, Yevlax şəhəri Nizami küçəsi 221 saylı evdə qeydiyyatda olan

İlhamin Zaməddin oğlu Quliyevin haqqındakı

Nəsimi rayon Məhkəməsinin 22 iyun 2010-cu il tarixli hökmündən məhkum edilmiş şəxs Alıyev Xələddin İsə oğlu tərəfindən verilmiş apellyasiya şikayətinə Bakı Apellyasiya Məhkəməsinin binasında açıq məhkəmə iclasında baxaraq

**MÜƏYYƏN ETDİ:**

Nəsimi rayon Məhkəməsinin 22 iyun 2010-cu il tarixli hökmü ilə (sədrlik edən X.B.Məhərrəmova) Alıyev Xələddin İsə oğlu Azərbaycan Respublikası CM-nin 221.3-cü maddəsi ilə təqsirli bilinib 4 (dörd) il müddətinə azadlıqdan məhrum etmə cəzasına, Azərbaycan Respublikası CM-nin 315.2-ci maddəsi ilə təqsirli bilinib 4 (dörd) il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş, Azərbaycan Respublikası CM–nin 66.3–cü maddəsinə əsasən təyin edilmiş cəzaları qismən toplamaq yolu ilə ona 5 (beş) il müddətinə azadlıqdan məhrum etmə cəzası təyin edilmiş, Alıyev Xələddin İsə oğlunun Ağır Cinayətlərə dair Azərbaycan Respublikası Məhkəməsinin 13 oktyabr 2009–cu il tarixli hökmü ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178.1, 181.2.1, 181.2.2 və 181.2.5–ci maddələri ilə təqsirli bilinib Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 66.3–cü maddəsinə əsasən ona təyin edilmiş əmlakı müsadirə edilməməklə 10 il müddətinə azadlıqdan məhrumetmə cəzası, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 66.5–ci maddəsinə əsasən hazırkı hökm ilə təyin edilmiş cəza ilə qismən toplamaq yolu ilə ona qəti cəza əmlakı müsadirə edilməməklə 13 (on üç) il 6 (altı) ay müddətinə azadlıqdan məhrumetmə cəzası təyin edilmiş, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 221.2.1–ci maddəsi Alıyev Xələddin İsə oğlunun ittihamından xaric edilmiş, Quliyev İlhamin Zaməddin oğlu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 221.2.1–ci maddəsi ilə təqsirli bilinib hər ay aylıq qazancının 20% -i dövlət nəfinə tutulmaqla 2 (iki) il müddətinə islah işləri cəzasına məhkum edilmişdir.

Alıyev Xələddin İsə oğlu və Quliyev İlhamin Zamədddin oğlu məhkum edilmişlər ona görə ki, Alıyev Xələddin İsə oğlu 23 dekabr 2005–ci il tarixli, Nəsimi rayon məhkəməsinin hökmü ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 221.2.2, 127.2.3–cü maddələri ilə təqsirli bilinərək, 3 il 6 ay müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib, Azərbaycan Respublikası Prezidentitnin 26 avqust 2008–ci il tarixli 819 saylı fərmanına əsasən 27 avqust 2008–ci ildə cəzadan azad edilməsinə baxmayaraq, 31 oktyabr 2008–ci il tarixdə saat 23:00 radələrində Bakı şəhəri “28 May” metrostansiyasının qarşısında, bir qrup şəxslə əvvəllər tanıdığı Quliyev İlhamin Zaməddin oğlu ilə və istintaqa şəxsiyyəti məlum olmayan digər bir nəfər şəxslə birlikdə, təkrarən ictimai qaydanı kobud surətdə pozan cəmiyyətə açıqca hörmətsizlik ifadə edən vətəndaşlar üzərində zor tətbiq olunması ilə müşayiət olunan hərəkətlər edib heç bir səbəb olmadan hər üçü əvvəllər tanımadıqları Mikayılov Cəmil Mirzə oğlu ilə metrostansiyanın qarşısında rastlaşaraq onunla mübahisə etmiş və bu zaman sonuncunu təhqir edərək yumruqla baş və bədən nahiyyələrindən vuraraq döymüş, Cəmil Mikayılov hadisə yerindən qaçmaq istədikdə yerdən götürdüyü və silah qismində istifadə etdiyi daş parçası ilə onun başından zərbə endirib sonuncuya başın təpə nahiyyəsinin əzilmiş yarası kimi sağlamlığın qısa müddətə pozulmasına səbəb olan sağlamlığa yüngül zərərvurmaya aid olan xəsarət və üzün sıyrıq və qançırları, sol əlinin sıyrığı kimi sağlamlığa zərər vurmadığından dərəcələri təyin olunmayan xəsarətlər yetirməklə xuliqanlıq etmişdir.

Bu zaman həmin hadisə yerinə gəlmiş hakimiyyət nümayəndəsi–Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Bakı şəhər Baş Polis İdarəsinin Bakı Metropolitenində Polis şöbəsinin polis nəfəri, Polis serjantı Usubov Mirzə Hacıverdi oğlu ictimai qaydanın qorunması üzrə xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar Alıyev Xələddin İsə oğlunu Quliyev İlhamin Zaməddin oğlunu və onlarla birlikdə olan istintaqa məlum olmayan digər 1 nəfər şəxsi xuliqanlıq hərəkətlərinə yol verdiklərinə görə “28 may” metrostansiyasında yerləşən polis məntəqəsinə aparmaq istətikdə Xələddin Alıyev Mirzə Usubovun qanuni tələblərinə məhəl qoymayaraq, polis məntəqəsinə getməkdən imtina etmiş, Mirzə Usubov onu polisə aparmaq üçün kəmərindən tutduqda onu yumruğu ilə sifət nahiyyəsindən vurmuş, bu zaman Mirzə Usubovun əlindən düşən rezin dəyənəyi yerdən götürüb sonuncunun baş nayihəsindən iki zərbə endirərək təpə nayihəsinin əzilmiş yarası kimi sağlamlığın qısa müddətə pozulmasına səbəb olan sağlamlığa yüngül zərər vurmaya aid olan xəsarət və alnının şişkinlik halında qançırı, alnının və təpə nahiyyəsinin 2 ədəd sıyrığı, burnunun və alnının 2 ədəd əzilmiş yaralarından ibarət ümumilikdə həm də ayrı- ayrılıqda sağlamlığa zərər vurmadığından dərəcələri təyin edilməyən xəsarətlər yetirərək həyat və sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə müqavimət göstərmişdir.

Quliyev İlhamin Zaməddin oğlu oğlu 31 oktyabr 2008–ci il tarixdə saat 23:00 radələrində Bakı şəhəri "28 may" metrostansiyasının qarşısında, bir qrup şəxslə əvvəllər tanıdığı Xələddin Alıyevlə və istintaqa şəxsiyyəti məlum olmayan digər bir nəfər şəxslə birlikdə, ictimai qaydanı kobud surətdə pozan cəmiyyətə açıqca hörmətsizlik ifadə edən, vətəndaşlar üzərində zor tətbiq olunması ilə müşayiət olunan hərəkətlər edib heç bir səbəb olmadan hər üçü əvvəllər tanımadıqları Cəmil Mikayılovla metrostansiyanın qarşısında rastlaşaraq onunla mübahisə etmiş və onu təhqir edərək yumruqla baş və bədən nahiyyələrindən vuraraq döymüş, ona başın təpə nahiyyəsinin əzilmiş yarası kimi sağlamlığının qısa müddətə pozulmasına səbəb olan sağlamlığa yüngül zərər vurmaya aid olan xəsarət və üzün sıyrıq və qançırları sol əlinin sıyrığı kimi sağlamlığa zərər vurmadığından dərəcələri təyin olunmayan xəsarətlər yetirməklə xuliqanlıq etmişdir.

Məhkum Alıyev Xələddin İsə oğlu apellyasiya şikayəti verərək hökmun qanuni baxımdan araşdırılmasını verilmiş cəzanın çox və ağır olduğunu nəzərə alınmasını cəzanı üstündən götürməklə Bakı şəhər Nəsimi rayon Məhkəməsinin 22 iyun 2010-cu il tarixli hökmünün dəyişdirilib yeni məzmunlu qərar qəbul edilməsini xahiş etmişdir.

Məhkum Alıyev Xələddin İsə oğlu apellyasiya şikayətini onunla əsaslandırmışdır ki, onun bu gənc yaşında məhkəmənin çıxardığı hökm və təyin etdiyi ağır cəza qismən ədsilətsizdir. İbtidai istintaqda və birinci instansiya məhkəməsində cinayət işi üzrə düzgün və obyektiv ifadə verərək məhkəmədən işin ədalətli araşdırılmasını xahiş etmişdir. Subay olduğunu, ata-anasının vəfat etməsini və bəzi halları yüngülləşdirici hal olaraq nəzərə almadan birinci instansiya həddən artıq ağır cəza təyin etmişdir.

Bakı Apellyasiya Məhkəməsinin cinayət kollegiyası cinayət işinin materiallarını araşdırıb, apellyasiya şikayətinin dəlillərini müzakirə edərək, apellyasiya şikayətinin təmin edilməsi barədə məhkumlar Alıyev Xələddin İsə oğlunun və Quliyev İlhamin Zaməddin oğlunun, apellyasiya şikayətinin təmin edilməməsi haqqında isə dövlət ittihamçısının fikirlərini dinləyərək hesab edir ki, aşağıdakı əsaslara görə apellyasiya şikayəti təmin edilməməli, Nəsimi rayon Məhkəməsinin 22 iyun 2010-cu il tarixli hökmü dəyişdirilməməlidir.

Belə ki, Alıyev Xələddin İsə oğlunun törətdiyi əməlin sübuta yetməsi mübahisələndirilməsə də məhkəmə kollegiyasının qənaətinə görə, birinci instansiya məhkəməsində Alıyev Xələddin İsə oğlunun təqsiri zərərçəkmiş şəxslərin, şahidlərin ifadələri, ekspert rəyləri və tədqiq olunmuş sübutlarla təsdiq olunaraq, ibtidai araşdırma zamanı toplanmış sübutlar birinci instansiya məhkəməsində tam, hərtərəfli və obyektiv araşdırılmış və mənbəyinin mötəbərliyi məhkəmə kollegiyasında heç bir şübhə doğurmayan bu sübutlar əsasında birinci instansiya məhkəməsi Alıyev Xələddin İsə oğluna ona ittiham olunmuş cinayət əməlini törətməsi haqda işin faktiki hallarına uyğun olan qanuni və əsaslı nəticəyə gəlmiş və X.İ.Alıyevin əməlini Azərbaycan Respublikası CM-nin 221.3 və 315.2-ci maddələri ilə düzgün tövsif etmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Məhkəmələr tərəfindən cinayət cəzalarının təyin edilməsi təcrübəsi haqqında" 25 iyun 2003-cü il tarixli, 4 saylı qərarında məhkəmələrə tövsiyə olunur ki, hər bir konkret halda təqsirləndirilən şəxslərə təyin edilən cinayət cəzası Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 8-ci maddəsinə müvafiq olaraq cinayətin törədilməsi şəraitinə, təqsirkarın şəxsiyyətinə uyğun olmaqla ədalətli olmalıdır.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 8.1-ci maddəsinə görə cinayət törətmiş şəxs haqqında tətbiq edilən cəza və ya digər cinayət-hüquqi xarakterli tədbirlər ədalətli olmalıdır, yəni cinayətin xarakterinə və ictimai-təhlükəlilik dərəcəsinə, onun törədilməsi hallarına və cinayət törətməkdə təqsirli bilinən şəxsin şəxsiyyətinə uyğun olmalıdır.

Həmin Məcəllənin 41.2-ci maddəsinə görə cəza sosial ədalətin bərpası, məhkumun islah edilməsi və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq məqsədi ilə tətbiq edilir.

Alıyev Xələddin İsə oğlu Nəsimi rayon məhkəməsinin 23 dekabr 2005–ci il tarixli hökmü ilə Azərbaycan Respublikası CM-nin 221.2.2, 127.2.3–cü maddələri ilə təqsirli bilinib

Azərbaycan Respublikası CM-nin 66.3–cü maddəsinə əsasən 3 il 6 ay müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş, Azərbaycan Respublikası Prezidentinin 26 avqust 2008–ci il tarixli Əfv fərmanına əsasən cəzasının çəkilməmiş qalan hissəsindən azad edilmiş, Ağır Cinayətlərə dair İşlər Üzrə Azərbaycan Respublikası Məhkəməsinin 13 oktyabr 2009–cu il tarixli hökmü ilə Azərbaycan Respublikası CM-nin 178.1, 181.2.1, 181.2.2 və 181.2.5–ci maddələri ilə təqsirli bilinib həmin məcəllənin 66.3–cü maddəsinə əsasən əmlakı müsadirə edilməməklə 10 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuşdur. Hazırkı Nəsimi rayon Məhkəməsinin 22 iyun 2010-cu il tarixli hökmü Alıyev Xələddin İsə oğlu Azərbaycan Respublikası CM-nin 221.3-cü maddəsi ilə təqsirli bilinib 4 il müddətinə, Azərbaycan Respublikası CM-nin 315.2-ci maddəsi ilə təqsirli bilinib 4 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş, azərbaycan Respublikası CM–nin 66.3–cü maddəsinə əsasən təyin edilmiş cəzaları qismən toplamaq yolu ilə ona 5 il müddətinə azadlıqdan məhrumetmə cəzası təyin edilmiş, birinci instansiya məhkəməsi Azərbaycan Respublikası CM-nin 66.5–ci maddəsinə əsasən hazırkı hökm ilə təyin edilmiş cəza ilə qismən toplamaq yolu ilə ona qəti cəza əmlakı müsadirə edilməməklə 13 il 6 ay müddətinə azadlıqdan məhrumetmə cəzası təyin edilmişdir.

Məhkəmə kollegiyası məhkum Alıyev Xələddin İsə oğluna təyin edilmiş cəzanın qanuniliyi və ədalətliliyini müzakirə edərək hesab edir ki, birinci instansiya məhkəməsi Azərbaycan Respublikası CM-nin 8, 41, 58, 59 və 61-ci maddələrinin tələblərinə əməl etməklə məhkumun cəzasını ağırlaşdıran və yüngülləşdirən halları, törədilmiş cinayətin xarakterini, ictimai-təhlükəlilik dərəcəsini, onun şəxsiyyətini, düzgün olaraq nəzərə alıb, ona əməlinə və şəxsiyyətinə uyğun olan qanuni və ədalətli cəza təyin etmişdir.

Odur ki, məhkəmə kollegiyası hesab edir ki, məhkum Alıyev Xələddin İsə oğlunun apellyasiya şikayəti təmin edilməməli və Nəsimi rayon Məhkəməsinin 22 iyun 2010-cu il tarixli hökmü dəyişdirilməməlidir.

Şərh olunanlara əsasən və Azərbaycan Respublikası CPM-nin 397.1, 397.2 və 398.1.1-ci maddələrini rəhbər tutaraq Bakı Apellyasiya Məhkəməsinin cinayət kollegiyası

**QƏRARA ALDI:**

Apellyasiya şikayəti təmin edilməsin.

Alıyev Xələddin İsə oğlunun və Quliyev İlhamin Zaməddin oğlunun məhkum olunmalarına dair Nəsimi rayon Məhkəməsinin 22 iyun 2010-cu il tarixli hökmünün Alıyev Xələddin İsə oğluna aid hissəsi dəyişdirilmədən saxlanılsın.

Qərar elan edildiyi andan qanuni qüvvəyə minir.

Qərardan Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 410-cu maddəsində göstərilən müddətlərdə Azərbaycan Respublikası Ali Məhkəməsinə kassasiya şikayəti və ya kassasiya protesti verilə bilər.